# "İNTERNETDƏ RƏQƏMLİ HÜQUQLARIN QORUNMASI VƏ İDARƏ EDİLMƏSİ" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLMİŞDİR



Bakı, 26 aprel (AzərTAc). Aprelin 26-da Azərbaycan Müəllif Hüquqları Agentliyi (MHA) və AMEA İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə "İnternetdə rəqəmli hüquqların qorunması və idarə edilməsi" mövzusunda seminar keçirilmişdir.

23 aprel – Dünya Kitab və Müəlliflik Hüququ və 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət günləri münasibətilə keçirilən tədbiri giriş sözü ilə MHA-nın sədri, professor Kamran İmanov açmışdır. Bildirmişdir ki, hazırda innovasiya texnologiyaları həqiqi mənada qlobal cəmiyyətimizin formalaşdırılmasına şərait yaratmışdır. Veb və naqilsiz texnologiyalar aramızdakı məsafələrin aradan qalxmasına, biliklərin tezliklə əldə edilməsinə və bununla fərdlər və təcrid edilmiş cəmiyyətlərin bilik, informasiya uçurumunun azaldılmasına gətirib çıxarır. Əqli mülkiyyət sistemi bu əlaqələrin yaranması prosesinin bir hissəsidir. İnformasiya texnologiyaları - əqli mülkiyyət (İT-İP) birləşməsi, cütlüyü doğrudan da nəzərə çarpan dəyişikliklərə gətirib çıxarmışdır.

İnternetin əqli mülkiyyət obyektlərinin virtual bazarına çevrilməsi (elektron ticarətdə satışda olan malların 50 faizdən çoxu əqli mülkiyyət hüquqları ilə qorunur), birbaşa elektron ticarətdə müəlliflik hüququ və əlaqəli hüquqlarla qorunan obyektlərin müstəsna rolu bu problemə xüsusi diqqət tələb edir. İnformasiya-kommunikasiya texnologiyaları (İKT) obyektlərinin əksəriyyətinin əqli mülkiyyət hüquqları ilə qorunması, bu hüquqların isə öz növbəsində İKT-nin inkişafına şərait yaratması informasiya cəmiyyətinin qurulması üçün böyük əhəmiyyətə malikdir. İnformasiya cəmiyyətinin tələbləri baxımından İT-İP-nin bir-birinə təsiri elektron ticarətdə əqli mülkiyyətin rolunun artması ilə bağlıdır.

Biliklərə əsaslanan iqtisadiyyat – "kreativ iqtisadiyyat" ilk növbədə "rəqəmli iqtisadiyyat"dır. Burada aparıcı rola malik olan əqli mülkiyyət obyektlərini bazara çıxarmaq və qiymətləndirmək üçün xüsusi informasiya örtüyü (təsvir, konyunktur məlumatlar və s.) tələb olunur. Həmin informasiya servisi İT və naqilsiz texnologiyalar, rəqəmli şəbəkələr vasitəsilə həyata keçirilir.

Sonra internetdə əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı problemləri faktlarla diqqətə çatdıran K.İmanov bildirmişdir ki, bır sıra inkişaf etmiş ölkələr rəqəmli iqtisadiyyat problemlərinin əqli mülkiyyət qanunvericilik bazasının təkmilləşdirilməsində görür. Biz də beynəlxalq təcrübəni nəzərə alaraq, müəyyən tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşuq. Agentlikdə İT-İP əlaqəsinin təhlili davam etdirilmiş, İKT-də əqli mülkiyyət hüquqlarının qorunmasının təsnifatı hazırlanmışdır.

Məlumat verilmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları əsasında müəllif-hüquq qanunvericiliyində rəqəmli mühiti nəzərə alan dəyişikliklər aparılmışdır. "Azərbaycan Respublikasında müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafı üzrə milli strategiya" və 2010-2013-cü illər üçün nəzərdə tutulmuş əqli mülkiyyət Dövlət Proqramının layihəsində bir sıra tədbirlər, o cümlədən online rəqəmli hüquqların idarə edilməsi xidmətinin yaradılması nəzərdə tutulmuşdur.

2009-cu ilin sonunda Dünya Əqli Mülkiyyət Təşkilatı ilə birlikdə rəqəmli hüquqlara aid beynəlxalq konfrans keçirilmiş, cari ilin aprelində isə Bakıda təşkil edilmiş "dəyirmi masa"da bu təşkilatın aparıcı ekspertlərinə Milli Strategiya və Dövlət Proqramının layihəsi təqdim olunmuş,

onların rəy və təklifləri dinlənilmişdir. Proqram müəlliflik hüquq, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsində, xüsusilə əqli mülkiyyət sisteminin qarşıdakı illərdə daha sürətli inkişafı ilə bağlı əsas vəzifələrin və strateji məqsədlərin yerinə yetirilməsində mühüm rol oynayacaqdır.

Dövlət Proqramının həyata keçirilməsi nəticəsində əqli mülkiyyət hüquqları sahəsində hüquqların qorunması, həyata keçirilməsi və müdafiəsinin təminatı inkişaf etmiş ölkələr səviyyəsinə uyğunlaşacaqdır.

AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Rasim Əliquliyev seminarın mövzusunun hazırkı dövrdə mühüm əhəmiyyətini diqqətə çatdırmış, internetin həyatımıza gətirdiyi reallıqlardan, problemlərdən danışmışdır. İntellektual mülkiyyətin qorunmasının vacibliyi vurğulanmış, Azərbaycanda bu istiqamətdə görülən işlər təqdirəlayiq sayılmışdır.

Seminarda MHA-nın sədri Kamran İmanovun "Virtual məkan və rəqəmli hüquqlar: həyata keçirilməsi və problemlər" və İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyevin "İnformasiya cəmiyyəti şəraitində əqli mülkiyyətin qorunması problemləri" mövzusunda məruzələri maraqla dinlənilmişdir.

Tədbirdə məruzələr ətrafında müzakirələr aparılmış, iştirakçılar mövzu ilə bağlı rəy və təkliflərini bildirmişlər.